## 2020-ci ilin yanvar-mart aylarında Azərbaycan Respublikasında pərakəndə ticarət, iaşə və pullu xidmət sahələrinin inkişafı

2020-ci ilin yanvar-mart aylarında ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 1.966,5 milyon manatlıq əlavə dəyər yaradılmış və onun ÜDM-də xüsusi çəkisi 10,7 faiz təşkil etmişdir. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə əlavə dəyərin real həcmi 2,1 faiz artmışdır.

Hesabat dövründə əsas kapitala yönəldilmiş bütün vəsaitin 0,5 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrinə sərf edilmişdir. 2020-ci il martın 1-i vəziyyətinə muzdla işləyənlərin sayı iqtisadiyyatın neft-qaz sektorunda 34,6 min nəfər, qeyri neft-qaz sektorunda isə 1.606,9 min nəfər olmuş və onların 18 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində cəmlənmişdir.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə, 2020-ci ilin yanvar-mart aylarında ölkənin pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılan malların həcmi 1,2 faiz artaraq 9.242,3 milyon manat təşkil etmişdir.

İstehlak mallarının 23,7 faizi ticarət müəssisələrində, 47,8 faizi fərdi sahibkarlara məxsus ticarət subyektlərində, 28,5 faizi isə bazar və yarmarkalarda satılmışdır. Hesabat dövründə pərakəndə ticarət şəbəkəsindən bir istehlakçı orta hesabla ayda 309,4 manatlıq və ya 2019-cu ilin müvafiq göstəricisi ilə müqayisədə 10,8 manat çox əmtəə almışdır.

Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində qida məhsulları, içkilər və tütün məmulatları 4.841,0 milyon manata bərabər olmuş və 2019-cu ilin müvafiq dövrünün səviyyəsini real ifadədə 2,9 faiz üstələmişdir. Pərakəndə şəbəkədə satılmış qeyri-ərzaq mallarının həcmi isə 4.401,3 milyon manat olmuşdur.

2020-ci ilin yanvar-mart aylarında hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində orta hesabla ayda 162,1 manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 147,3 manatlıq isə qeyri-ərzaq malları almışdır.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 46,9 faizi ərzaq məhsullarının, 5,5 faizi içkilər və tütün məmulatlarının, 16,7 faizi toxuculuq malları, geyim və ayaqqabıların, 5,7 faizi elektrik malları və mebelin, 5,2 faizi avtomobil yanacağının, 1,6 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları, çap məhsullarının, 17,7 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

**2020-ci ilin yanvar-mart aylarında pərakəndə ticarət dövriyyəsinin məhsul qrupları üzrə strukturu**




**İaşə xidməti**

2020-ci ilin yanvar-mart aylarında əhaliyə 279,3 milyon manatlıq iaşə xidmətləri göstərilmişdir. Özəl sektorda ictimai iaşə dövriyyəsinin 40,7 faizi hüquqi şəxs statuslu müəssisələrin, 59,3 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti göstərən fərdi sahibkarların payına düşmüşdür. Hesabat dövrü ərzində hüquqi şəxs statuslu müəssisələrdə iaşə dövriyyəsinin həcmi 112,4 milyon manat olmuşdur.

**Pullu xidmətlər**

2020-ci ilin yanvar-mart aylarında əhaliyə 2.006,1 milyon manat pullu xidmətlər göstərilmişdir. Hüquqi şəxslər tərəfindən əhaliyə 1.472,5 milyon manat xidmət göstərilmişdir ki, bu da ümumi xidmətlərin 73,4 faizini təşkil edir. Hesabat dövründə hər bir ölkə sakini orta hesabla 201,5 manatlıq müxtəlif növ pullu xidmətlərdən istifadə etmişdir.